

Adilə NƏZƏR

## ZAMAN VƏ İNSAN

Könlüm, gəl elə bu gündən,
Suala cavab arama.
İndiyədək bildiklərin,
Dərman olmadı yarana.

Hansı kəmi tamamlayıb,
Yalanı doğrulayıbsan?
Kimə nəyi veribsənsə,
Özündən oğurlayıbsan.

İnandığın qəlbi daşlar,
Vəfasız oldu andına.
İçinə axanda yaşlar,
Kim döndü yara bandına.

Yaşandı bitdi bunca dərd,
Sayısını da unutdun.
Başqalarıyçün yananda,
Özün özünü ovutdun.

O qədər ağlayıbsan ki,
Gözünün yaşı quruyub.
Üzülmə, elə dünyanın da,
Əli-ayağı soyuyub.

## 50 YAŞIN ŞEİRİ

Sən məni yaza bilərsənmi?
anlada bilərsənmi ruhumun rəngini?
Səhərlərimin yağış qoxusunu,
gecələrimin zülüm qorxusunu,
gündüzlərimin sıxıntılarını,
axşamlarımın dağıntılarını...

Sən məni yaza bilərsənmi?
doğulduğum işıl-işıl may gecəsini,
ruhumu köçürdüyüm şeirlərimin bircə hecasını,
taleyimin tapmacasını...
Hər yerə qaçaraq yerişimi,
ağlar gülüşümü..
sonra... sonra...
xəyallara kasıb gedib,
varlı gəlişimi...

Sən məni yaza bilərsənmi?
Dərdimin arsızlığını,
işimin karsızlığını,
dağımın qarsızlığını,
bağımın barsızlığını,
yarımın yarsızlığımı...

Sən məni yaza bilərsənmi?
"dəryada batan gəmi"lərimi,
çay kənarında quruyan zəmilərimi,
hüznlü qəmzələrimi...
Bir parça yorğun canımı,
sevən, sevilən yanımı,
sonuncu həyəcanımı...

Sən məni yaza bilərsənmi?
doğru bildiyim yoldan -
haqdan heç sapmadığımı,
vətənimdə ağrımayan yer tapmadığımı,
Turan sevdasını başdan atmadığımı...

Mən əlli yaşımda səni yüz dildə yazdım,
sən məni bir dildə yaza bilərsənmi?
Sən məni yaza bilərsənmi, həyat?!

## BƏSİMDİ

Səndən sevgi ummuram,
öz sevgim özümə bəs.
Arama yaddaşında,
məni boş yerə, əbəs.
Qandal vurmuşam artıq
sənə tərəf uzanan
nagüman əllərimə...
Qoy bircə Tanrı yansın,
mənim dərdi-sərimə.
Bir qağayı fəryadı
gəlsə, mənim səsimdi.
Sahildə xəyallara
tək dalıram, bəsimdi...
Dilə-ağıza düşüb,
söz olmaq da var imiş.
qismətimdə alışıb
köz olmaq da var imiş.
həyatla tamamən üz -
göz olmaq da var imiş.
Üz tutub tənhalara,
çöllərə, dərələrə...
keçmiş xatirələrə
hey dalıram, bəsimdi...

Tək gileyim gecədən,
gecə ağrılı olur.
Yuxumu çox kəsirəm,
yuxum sarğılı olur...
Zalım yoxdu gecə tək...
Sözümə baxmır ürək...
mən də ona zülm edib,
hərdən özümdən gedib
sən oluram, bəsimdi...
Yolunda bircə əlçim
çən oluram bəsimdi.

Sənin məndən umduğun
səsim imiş, bilirəm.
Sevgin bircə küləklik
əsim imiş bilirəm.
Eşitdiyin, duyduğun
hər səs mənim səsimdi.
İndi tək təsəllim var,
bu şəhərdə sən verdiyin nəfəsi
mən alıram, bəsimdi...



Kaspi 2019.- 4-6 may.- S.20.